Yazan
19.12.13 20:20 -



Mədəniyyət və Turizm Nazirliyi, eləcə də Azərbaycanın Rusiyadakı səfirliyi milli rəqsimiz olan "Uzundərə"nin OPT-də erməni rəqsi kimi təqdim edilməsinə etiraz edəcək.

Bunu Mədəniyyət və Turizm Nazirliyin mətbuat katibi İntiqam Hümmətov bildirib.

Nazirlik rəsmisinin sözlərinə görə, bu məsələ bir də araşdırılacaq və yaxın zamanlarda məsələ ilə bağlı ORT kanalına və eləcə də başqa müvafiq qurumlara rəsmi etiraz göndəriləcək.

Qeyd edək ki, Rusiyanın Birinci (ORT) telekanalında yayımlanan "Sağlamlıq" verilişində aparıcı Yelena Malışeva Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" filmində də istifadə olunan Azərbaycanın məşhur milli rəqs havası "Uzundərə"nin erməni mədəniyyətinə aid olduğunu bildirib. Sonra da erməni rəqqas bu mahnının sədaları altında rəqs edib. Həmin fraqmeti təqdim edirik:

Yazan
19.12.13 20:20 -

{youtube}vsa0InNDh6A{/youtube}